F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Zirvələri fəth edən rəssam qadın-Maral Rəhmanzadə

**Azərbaycan xalq rəssamı Maral Rəhmanzadənin 110 illik yubileyi münasibətilə kütləvi oxucular üçün hazırlanmış metodik vəsait**

**Bakı – 2026**

**Tərtibçi:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Azərbaycan xalq rəssamı Maral Rəhmanzadənin 110 illiyi münasibətilə**-kütləvi oxucular üçün hazırlanmış metodik vəsait / F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2026. – 18 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2026**

## Bölmə I

## Həyat və yaradıcılığı

Azərbaycan təsviri sənətindən söz açarkən istedadlı fırça ustası, məhsuldar yaradıcılığı ilə diqqəti cəlb edən Xalq rəssamı Maral Rəhmanzadə barədə danışmamaq qeyri-mümkündür. Bu il ilk qadın rəssamımız, professional rəssamlıq təhsili görmüş ilk Azərbaycanlı qadın, qrafika ustası, milli qadın obrazının kamil yaradıcısı, Azərbaycan Respublikası Dövlət Mükafatı laureatı, Xalq rəssamı Maral Rəhmanzadənin 110 illik yubileyidir. Görkəmli mədəniyyət xadimi, məşhur sənətkar, böyük rəssam, gözəl şəxsiyyət Maral Rəhmanzadə zəngin və mənalı olduğu qədər də keşməkeşlərlə, çətinliklərlə, ağrılarla dolu bir həyat yolu keçib. Amma bu yolda daim onu irəli aparan mübarizlik əzmi, mərdliyi, mətanəti və yenilməz qüruru olub. Onun xarakter cizgilərini bütövləşdirən bu keyfiyyətlər həyatına dərindən təsir göstərib. Maral Rəhmanzadə 1916-cı ildə Mərdəkanda zərgər ailəsində dünyaya gəlmişdi. Düzəltdiyi bəzək əşyaları ilə Bakıda böyük şöhrət qazanmış zərgər olan atası Yusif Rəhmanzadənin təkrarsız, zərif əl işlərini görən, bəzən naxışlar çəkməkdə ona kömək edən Maral xanım, uşaqlıq illərindən rəssamlığa beləcə mehr salmış, bu sənəti sevmişdi. Tanınmış rəssam bacı və qardaşları ilə birlikdə yaradıcı mühitdə tərbiyə alıb. Onun boya-başa çatdığı ailədə Azərbaycan incəsənətinin qədim ənənələri qayğı ilə qorunur, nəsildən-nəslə ötürülürdü. Maral Rəhmanzadə xoşbəxt bir ailədə dünyaya göz açmışdı. Allah ona gözəllik, böyük istedad, şan-şöhrət versə də, bütün həyatı təlatümlər içində keçmişdi; lakin yaşadığı kədərli taleyə, çətin günlərə baxmayaraq o, böyük ilklərə, miqyaslı işlərə imza ataraq, yaradıcılıq yolunda uğurla, inamla addımlamışdı. Yüzlərlə qız üçün gözəl örnək olmuş, yeni bir cığır, yol açmışdı. Sonralar "rənglər dünyasının ilahəsi" adlandırılacaq bu istedadlı qız 1922-ci ildə Bakıdakı Hüseyn Cavid adına 8 saylı qız məktəbində təhsilə başlamışdı. Hələ məktəbli ikən "Ana dili" kitabındakı xalq nağıllarına və "Aran köçü" hekayəsinə ilk şəkillərini çəkmişdi. Həmin şəkillərin, eləcə də çəkdiyi çeşidli zərgərlik naxışlarının ötəri bir həvəs olmadığını ilk anlayan, onu böyük gələcəyə aparan bu istedadı ilk hiss edən isə atası olmuşdu.1928-ci ildə 8 Mart – Beynəlxalq Qadınlar bayramına həsr edilmiş məktəb yığıncağında öz rəfiqələri ilə birgə çadrasını atması onun həyatında böyük dəyişikliklərə səbəb olmuşdu. Maral xanım təhsilli qadınlarımız cərgəsində ön sıralarda yer almış, azad Azərbaycan qadını kimi qadının cəmiyyətdəki rolunu öz həyat və yaradıcılıq yolu ilə təsdiqləmişdi. Rəssamlığa olan böyük sevgisi onu Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumuna gətirib çıxartmışdı. 1930–1933-cü illərdə bu təhsil ocağında oxuyan gənc rəssam qız, burada təhsilini bitirdikdən sonra professional rəssamlığın sirlərinə daha dərindən yiyələnmək üçün Moskvaya yola düşmüşdü. 1934–1940-ci illərdə Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda oxuyan Maral Rəhmanzadə 1939-1940-cı illərdə burada Nikolay Radlov və Mixail Radionovun rəhbərliyi ilə illüstrasiyadan, İqor Qrabarın və Konstantin İstominin rəhbərliyi ilə rəngkarlıqdan, Dmitri Moorun rəhbərliyi ilə plakatdan dərs alıb. 1940-cı ildə Moskvada təhsilini başa vuran rəssam burada o

dövrün nüfuzlu “Xudojestvennaya literatura” nəşriyyatında işə başlasa da, 1941-ci ildə atasının “xalq düşməni” elan edilməsi və 6 ay sonra həbsxanada vəfatı hadisəsindən xəbər tutanda, həyat yolunu dəyişməli olur... 1941-ci ildə Bakıya qayıdan gənc rəssamın Maral Rəhmanzadə imzası ilə tanınması da elə həmin vaxtdan başlayır. O, 1946-cı ildən çeşidli sənət istiqamətli, müxtəlif janrlı rəssamlıq sərgilərinin iştirakçısına çevrilir. Rəssamın yaradıcılğının erkən dövründə çəkdiyi dəzgah rəsmləri silsiləsindən olan “Azərbaycan qadını keçmişdə və indi”, “Qadınlar müharibə illərində” və başqa əsərlərində qoçaq, ağıllı, gözəl, mərd Azərbaycan qadınlarının həyatı, məişəti, qəhrəmanlığı öz əksini tapıb. Azərbaycan qadınları onun əsərlərində çinar qamətli, məğrur, azad, əzəmətli qadınlar kimi təsvir olunub. Təsadüfi deyil ki, onun bu rəsmləri dövrün məşhur “Azərbaycan qadını” jurnalında müntəzəm olaraq dərc edilirdi. Həmin illərdə rəssamın yaradıclıq ulduzu daha gur parlasa da, şəxsi həyatı böyük ağrıların içindən keçməkdə idi. Bu ağrılar ilk öncə onun doğulub boya-başa çatdığı ailə ilə bağlıydı. Maral xanım vəfatı xəbərini eşitdiyi gündən bəri yoxluğunu qəbul etmədiyi atası haqqında düçüncələrini belə dilə gətirirdi: “Deyirlər qız övladları anaya daha bağlı olur. Amma yox, mən atamı çox sevirdim. İndi də siması gözlərimin önündədir. Baxmayaraq ki, repressiyanın qurbanı olub, aradan 60 ildən artıq vaxt keçib, hərdən mənə elə gəlir ki, lap yanındayam.” Atasının repressiya qurbanı olması, yenicə evləndiyi həyat yoldaşının bir həftə sonra müharibəyə aparılması və geri dönməməsi, bütün bu ağrılar, dözülməz çətinliklər qarşısında Maral xanım əzəməti, iradəsi, gücü ilə ayaqda duraraq, bir-birindən dəyərli sənət əsərləri yaradırdı. Sənətkarlıq əzmi, yaşayıb-yaratmaq eşqi, mübarizliyi ilə yüzlərlə Azərbaycan qadınına örnək olur, öz yaradıcılığında da Azərbaycan qadınının mükəmməl portretini yaradırdı.Çağdaşları hələ 24 yaşında ikən onu “dahi” adlandırırdı. Öz intellekti, istedadı, kübarlığı ilə hamını heyran qoyan Maral Rəhmanzadə əsərləri ilə isbat etmişdi ki, fırçanı əlinə təsadüfən götürməyib. Çünki Maral Rəhmanzadə Bəhruz Kəngərli, Əzim Əzimzadə kimi köklü - köməcli sənət şəcərəsindən idi. Böyük sənətkarımız haqqında böyük gerçəkləri danışan, onu həyat həqiqətini bütün çalarları ilə canlandıran isə rəssamın ömür dəftəri sayılan, bir-birindən rəngarəng, dərin məzmunlu əsərləridir.Maral Rəhmanzadə sənəti çoxşaxəli, çoxcəhətli bir yaradıcılıq kimi diqqəti çəkir. O, rəssamlıq sənətinin demək olar ki, mümkün olan bütün qollarında, önəmli sahələrində ölməz əsərlər yaradıb. Böyük rəssamın Vətən qarşısında xidmətləri, Azərbaycan incəsənətini, mədəniyyətini zənginləşdirən sənətkarlıq nailiyyətləri dövlət səviyyəsində də layiqli qiymətini alıb. Maral Rəhmanzadə 1964-cü ildə Azərbaycanın Xalq rəssamı adına layiq görülüb. Milli təsviri sənətin inkişafındakı böyük nailiyyətlərinə görə “Qırmızı əmək bayrağı”, “Şərəf nişanı” ordenləri, həmçinin bir sıra medallarla, eləcə də milli müstəqillik illərində, 1996-cı ildə Prezident Fərmanı ilə müstəqil respublikamızın ali mükafatlarından olan “Şöhrət” ordeni ilə təltif edilib, Prezidentin fərdi təqaüdçüsü olub. 16 mart 2008-ci ildə, Novruz bayramı ərəfəsində Maral Rəhmanzadənin vəfatı xəbəri bütün Azərbaycan xalqını sarsıtdı. Bir çox mətbuat orqanı dərc etdikləri

nekroloqlarda, rəssam haqqında məqalələrdə xalqımızın dərin kədərini ifadə etdi. Böyük rəssamımız doğulub böyüdüyü Mərdəkanda torpağa tapşırıldı. Azərbaycan böyük bir rəssamını, möhtəşəm ziyalını, kübar bir qadını, əzəmətli şəxsiyyəti itirdi. Təbii ki, bu itki bütün mədəniyyətimiz üçün böyük itki idi. Çünki Maral Rəhmanzadə müasir milli rəngkarlıq məktəbinin inkişafında yüksək xidməti olan sənətkarlarımızdan olmuşdu. O, təsviri sənətimizin zəngin ənənələrini davam etdirərək yetmiş ildən artıq bir dövr ərzində səmərəli fəaliyyət göstərmiş, mənaca dolğun, təbii və yaddaqalan lövhələr yaratmışdı. Azərbaycan rəssamlıq sənətinə layiqli töhfələr verən mahir fırça ustasının müxtəlif mövzularda əsərləri mədəniyyətimizin tarixinə boyakarlığın qiymətli örnəkləri kimi daxil olmuşdur. Bəli, Maral xanım Azərbaycanı böyük bir sevgiylə sevən, əsərlərində onun hər qarışını – bölgəsini, kəndini, kiçik bir guşəsini belə sonsuz məhəbbətlə tərənnüm edən möhtəşəm sənətkar idi. O, tez-tez bölgələrdə yaradıcılıq ezamiyyətlərində olurdu. Biz Azərbaycanın müxtəlif bölgələrinə gedəndə Maral Rəhmanzadənin o yerlərə səfərləri ilə bağlı xoş xatirələri eşidirik. Rəssamın vətənimizin ayrı-ayrı guşələrinin, o cümlədən, Naxçıvan, Lənkəran, Şamaxı və Qubanın qədim tarixi abidələrini, əsrarəngiz təbiət mənzərələrini əks etdirən milli koloritli əsərləri qrafik elementlərin lakonikliyi və güclü səmimiyyəti ilə seçilir. Onun “Xınalıq”, “Xınalıqda toy mərasimi”, “Dağların başında”, “Dağ kəndi Xınalıq. Atlılar”, “Xonça aparırlar” adlı rəsmləri bu gün də izləyicilərin böyük maraqla seyr edib, zövq aldığı əsərlərdəndir. Maral Rəhmanzadənin neçə-neçə nəsillərin incəsənət zövqünü formalaşdıran qiymətli əsərləri bu gün də öz çağdaşlığını və güncəlliyini qoruyub saxlayır. Onun yaradıcılığında əmək və məişət mövzuları özəlliklə üstünlük təşkil edir. Azərbaycan kəndinin real həyatı, doğma təbiətin təsviri onun rəngli linoqravüra silsilələrinin də aparıcı mövzusudur. 1965–1975-ci illərdə çəkdiyi “Bizim qızlar”, “Mənim bacılarım”, “Doğma vətənim”, “Azərbaycan” və b. əsərləri sözün əsil mənasında böyük sənət əsərləridir. Azərbaycan qadınına xas olan ülvi bir gözəlliyin, zərifliyin və zəngin mənəvi aləmin rənglərin əlvan dili ilə parlaq ifadəsi Maral xanımın yaradıcılığında başlıca xüsusiyyətlərdən biri kimi diqqət mərkəzində dayanır. Çünki o, özü də məhz belə bir Azərbaycan qadını kimi simvol olmuşdu.Maral Rəhmanzadə bir çox ölkələrə yaradıcılıq səyahətləri etmişdi. Sənətkar dünyagörüşünü daha da zənginləşdirən bu səfərlər onun yaradıcılığında silinməz izlər qoyur, yeni-yeni əsərlərinin ərsəyə gəlməsinə ilham verirdi. O, səfərdə olduğu ölkələrin həyatından silsilə qravüralar yaratmışdı ki, 1959–1960-cı illərdə çəkdiyi “Çexoslovakiyada” silsiləsi bunun bariz örnəyidir.Maral xanımın kitab qrafikası sahəsində də geniş və böyük fəaliyyəti hər zaman minnətdarlıqla yad edilir. O, bir çox əsərlərə gözəl illüstrasiyalar çəkmişdir. Klassiklərimizdən Nizami Gəncəvi, Şah İsmayıl Xətai və Məhəmməd Füzulinin kitablarına verdiyi bədii tərtibatlar və çəkdiyi çoxsaylı illüstrasiyalar oxucuya həmin əsərlərin məzmun və qayəsinin obrazlı çatdırılmasında önəmli vasitə olub. M.S.Ordubadinin “Qılınc və qələm”, M.F.Axundzadənin “Aldanmış kəvakib”, A.S.Puşkinin “Yevgeni Onegin” və M.Y.Lermontovun

“Zəmanəmizin qəhrəmanı” əsərlərinə illüstrasiyaları da bu janrın qiymətli örnəklərindəndir. Eləcə də, 1945-ci ildə tərtibat verdiyi Şah İsmayıl Xətainin “Dəhnamə” kitabındakı illüstrativ materiallar Maral Rəhmanzadənin həm rəssamlıq, həm də ədəbiyyat tarixindəki çox böyük və nadir xidmətlərindəndir. Böyük dramaturq Cəfər Cabbarlının yaradıcılığını ifadə edən “Qız qalası”, “Gülzar” rəsmləri də rəssamın ədəbiyyata böyük sevgi və diqqətinin göstəricisidir. Heyran xanımın lirik qəzəllərinə, Azərbaycan nağıllarına çəkdiyi illüstrasiyalar isə möhtəşəm sənətkarlıq nümunələri olmaqla yanaşı, Azərbaycan mədəniyyət tarixini özündə əks etdirən ən gözəl əsərlər kimi diqqətəlayiqdir. Maral xanımın bu illüstrasiyaları ilə dəyərini daha da artıran həmin kitablar şəxsi kitabxanamda qiymətli əsərlər kimi önəmli yer tutur. Bu kitablar geniş oxucu kütləsi tərəfindən bu gün də böyük maraqla qarşılanır.Rəssamın sərgiləri ölkəmizin müxtəlif şəhərlərində təşkil edilərək sənətsevərləri Maral Rəhmanzadə sənətinin işığına toplayıb. Maral xanım Azərbaycanın hüdudlarından kənarda da böyük rəğbətlə qarşılanan rəssamlardan biridir. Onun əsərləri xarici ölkələrdəki incəsənət sərgilərində nümayiş etdirilib. Görkəmli Azərbaycan rəssamının Rusiyada, Şri-Lankada, Kubada, İranda keçirilən fərdi sərgiləri Azərbaycan mədəniyyətini dünya ictimaiyyətinə yüksək səviyyədə təqdim edib. Maral xanımın əsərləri bu gün də Rusiyada (Moskvadaki məşhur Trediakovski qalereyasında), Amerika Birləşmiş Ştatlarında, İngiltərədə bir sıra şəxsi kolleksiyalarda saxlanılır. Ölkəmizdə isə Maral xanımın əsərləri Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm qalereyası və digər muzeylərdə sərgilənir. Gənc nəslin bu müzeylərə baş çəkərək Maral xanımın möhtəşəm yaradıcılığı ilə daha yaxından tanış olması vacibdir. Çünki bu yaradıcılıq bütövlükdə milli-mənəvi dəyərlərimizin təbliğinə yönəlib.Bu qədər böyük bir sənət yolu keçən, qiymətli yaradıcılıq irsi qoyub gedən Maral Rəhmanzadə sadəcə rəssam kimi deyil, şərəfli bir ziyalı, ləyaqətli qadın kimi kübarlığı, biliyi, davranışı, mədəniyyəti ilə möhtəşəm bir Azərbaycan qadını obrazı idi. Onu yaxından tanıyanlar, onunla həmsöhbət olanlar söhbət etməkdən çox böyük məmnuniyyət duyardım. Həmin söhbətlər Maral xanımın işıqlı xatirəsi kimi mənə çox əzizdir. Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində belə bir qadının olması ilə qürur duyuram. Çünki Maral Rəhmanzadə öz həyat yolu ilə minlərlə Azərbaycan qızına yol açmış örnək sənətkarımız, böyük bir şəxsiyyətdir.Nur içində yatın, Maral xanım! Sizi heç bir zaman unutmayacağıq. Bu günkü və gələcək nəsillər hər zaman sizinlə qürur duyacaq, sizi şükranlıqla, sevgi, məhəbbətlə yad edəcəklər. Ruhunuz şad olsun!

Bölmə II

Yubiley tədbirlərinin keçirilməsi

Azərbaycanın ilk peşəkar qadın qrafika rəssamı, Xalq rəssamı Maral Rəhmanzadənin anadan olmasının 110 illik yubileyi qeyd olunmaqdadır. Bu münasibətlə respublikamızın bir çox qurumlarında, muzey, kitabxana, rəsm qalereyalarında silsilə tədbirlərin və sərgilərin təşkil olunması nəzərdə tutulmuşdur. Haqqında söz açdığımız sənətkar Azərbaycan qrafika sənətinin inkişafında və kitab qrafikası sahəsində misilsiz xidmətlər göstərmiş Maral Yusif qızı Rəhmanzadədir. Xalq rəssamı, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli sənətkarın bənzərsiz irsinə dövlət səviyyəsində həmişə yüksək qiymət verilmişdir. Elə bu baxımdan görkəmli sənətkarın zəngin irsinin geniş şəkildə təbliği üçün respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxana, incəsənət, xalça muzeylərində, lisey, gimnaziyalarda silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq bizdə yubileylə bağlı tədbirlər planı hazırlamışıq. Plana əsasən ilk növbədə foto və kitab sərgisi hazırlanır. Sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: "Xalq rəssamı Maral Rəhmanzadə", "Rənglər dünyasının ilahəsi-Maral Rəhmanzadə", "Təsviri sənətimizin Maral Rəhmanzadə ecazı", "İlk peşəkar Azərbaycanlı qadın rəssam Maral Rəhmanzadə", "Rənglərin sehirli dünyası", "Mədəniyyətimizin simaları-Maral Rəhmanzadə" və s. "Rənglərin sehirli dünyası" adlı rəsm sərgisini sizlər üçün təqdim edirik:

1.Başlıq.

"Rənglərin sehirli dünyası"

2. Görkəmli şəxsiyyətlərin Maral Rəhmanzadə haqqında söylədikləri

3. Foto albom

4.Rəsmlərinin nümayişi

5.Dövrü mətbuatda çap olunun qəzət və məqalələrin kartotekası

**Görkəmli şəxsiyyətlərin Maral Rəhmanzadə haqqında söylədikləri**

1. Xalqımız sizi bütün həyatını respublikamızda rəngkarlıq və qrafika sənətinin inkişafına həsr etmiş fədakar incəsənət xadimi kimi tanıyır. Uzun illər ərzində gərgin zəhmətinizin məhsulu olan, Azərbaycan xalqının həyatını özündə əks etdirən dolğun əsərləriniz sizə şöhrət gətirmişdir.

   Sizin Laçın və Naxçıvanın, Lənkəran və Qubanın gözəlliklərinə həsr etdiyiniz tablolar Azərbaycanın füsunkar təbiətini əks etdirərək gənc nəslin Vətənə məhəbbət ruhunda tərbiyəsinə xidmət etmişdir. Sizə xas olan incəliklə yaratdığınız qadın obrazları isə xüsusi diqqətə layiqdir.

   Heydər Əliyev
   Ümumilli lider

2. Bu qədər böyük bir sənət yolu keçən, qiymətli yaradıcılıq irsi qoyub gedən Maral Rəhmanzadə sadəcə rəssam kimi deyil, şərəfli bir ziyalı, ləyaqətli qadın kimi kübarlığı, biliyi, davranışı, mədəniyyəti ilə möhtəşəm bir Azərbaycan qadını obrazı idi. Onu yaxından tanımaqdan, söhbət etməkdən çox böyük məmnuniyyət duyardım. Həmin söhbətlər Maral xanımın işıqlı xatirəsi kimi mənə çox əzizdir. Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində belə bir qadının olması ilə qürur duyuram. Çünki Maral Rəhmanzadə öz həyat yolu ilə minlərlə Azərbaycan qızına yol açmış örnək sənətkarımız, böyük bir şəxsiyyətdir.

   Qənirə Paşayeva
   İctimai-siyasi xadim, jurnalist

3. Özü ilə yalnız "Şöhrət", "Şərəf nişanı" ordenləri, Prezident təqaüdü şərəfi aparan bu gözəlliklər xanımı bizə çox şeylər qoyub getdi.

   Bir çox qələmlər-kameralar belə-belə məsələlərə uymasa da, Mərdəkan qəbiristanlığında uyuyan bir məzardan dalğalanan bir ruh, yəqin ki, bunları duyur...

   Tahir Abbaslı
   Juranlist

4. M.Rəhmanzadə yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi məzmun-forma dolğunluğu və ahəngdarlığı, kompozisiya bitkinliyi və lakonikliyi, obrazların bədii ifadəliliyi, milli-etnoqrafik xüsusiyyətlərin mahiranə təcəssümü, kolorit zənginliyini və digər cəhətləri qeyd etmək

   Əsəd Quliyev

   sənətşünas, Azərbaycan Milli İncəsənət Muzeyinin böyük elmi işçisi

5. Maral Rəhmanzadə artıq dünyada yoxdur, amma onun əsərləri yaşayır, yaşadıqca da öz müəllifini yaşadır. Azərbaycan mədəniyyət tarixində böyük qadınlar çox olub. Bu sırada əsl qadın, gözəllik simvolu Maral Rəhmanzadənin yeri ayrıdır.

İradə Sarayeva
Jurnalist

6. Şərq aləmində qadın sənətkarlara çox az-az rast gəlmək olar. Bunun bizə məlum olan və məlum olmayan cəhətləri vardır. Lakin bütün bunlara rəğmən Azərbaycanda yaradıcılığı yüksək dəyərlərə malik Məhsəti Gəncəvi, Heyran xanım, Sara Xatun, Xurşidbanu Natəvan və digər qadın sənətkarları qeyd etmək yerinə düşər. Bu sıraya XX əsrdə yaşamış Qeysər Kaşıyeva, Maral Rəhmanzadə, Vəcihə Səmədova, Həyat Abdullayeva, Elmira Hüseynova və başqa qadın rəssam və heykəltəraşları da daxil etmək olar.

Əsəd Quliyev
sənətşünas, Azərbaycan Milli İncəsənət Muzeyinin böyük elmi işçisi

**Rənglər dünyasının ilahəsi-Maral Rəhmanzadə" adlı foto albom**











## Rəsm əsərlərinin sərgisi



















Sərgi qarşısında rəssamın sənət yoldaşları onu da vurğulayıblar ki, Maral Rəhmanzadənin yaradıcılığında Azərbaycanın təbiəti, doğma yurdun gözəllikləri geniş şəkildə tərənnüm olunub. Həmçinin onun əsərlərinin əksəriyyəti nef daşlarına, dəniz neftçilərinin qəhrəmanlığına həsr edilib. Bu da ondan irəli gəlir ki, rəssamın uşaqlığı neft qoxulu Xəzərin sahilində keçib. İllər sonra gənc rəssam neftçilərlə birlikdə dənizə çıxır, onların əməyini müşahidə edirdi. O, neftçilərin dənizdəki təbii fəlakətə qarşı nə qədər cəsarətli olduğunu görür və bunları öz əsərlərində əks etdirirdi. Daha sonra sərgi qarşısında gənc rəssamlara "Günəş şüaları" adlı rəsm əsəri haqqında bir neçə suallar verilir. Məsələn: Əsərin məzmunu nədən ibarətdir? Niyə nefti "qara qızıl" adlandırırlar? Neft daşlarında olmusunuzmu? Sizdə hansı təəssürat yaranıb? və s.

Maral Rəhmanzadə yaradıcılığında qadın mövzusu da geniş və həssas mövzulardan biri olub. Beləki, o, əsərlərində qadın bədəninin gözəlliyini qabardan milli geyimləri təsvir etməyi daha çox sevirdi. Onun tablolarındakı kənd qızları yaraşıqlı və şən, təmtəraqlı bəzənmiş və qəşəngdilər. Tablolarındakı milli libasları böyük sevgi və bacarıqla zərgərlik məmulatı ilə tamamlayırdı. Parlaq xəfif axınlı ətəklər, incə bellər, sərv qamətlər rəsmlərdə vurğulanır. Ənənəvi hörmə naxışlı ipək kələğayı yumşaq büküklərlə çiyinlərə düşür, zinət əşyaları bacarıqla çəkilirdi. O, bu rəsmlərdə qadın gözəlliyinin özəl bir kanonunu yaratmış oldu-onun gözəlləri uzadılmış propursiyalı və çinar qamətlidir, onlar seyirçinin nəzərində məğrur və azad qadınlardır.

Maral Rəhmanzadə qadın qədd-qamətinin gözəlliyini vurğulayan milli geyim çəkməyi, daha doğrusu “yazmağı” sevirdi. Bir sözlə qadın mövzusuna ürək qızdıran rəssam üçün əsərlərinin sevimli qəhrəmanı qadın olan sənətkar “Azərbaycanın qadın aşıqları və şairələri”, “Azərbaycanın qadınları”, “Mənim bacılarım” əsərləri ilə istedadlı və gözəl xanımlarımızın obrazlarını yaradaraq, onların zəngin daxili mənəvi aləmini ustalıqla açıqlaya bilib.Maral Rəhmanzadə fırçasında qadın mövzusu onun yaradıcılığının bütün dövrləri üçün aktual olub. "Cəbhə rəfiqələri", "Qadın ansamblının çıxışı", "Haqsızlıq", "Köləlik simvolu" kimi  rəsm əsərləri bu qəbildəndir. Azərbaycan qadınının obrazı bədii ədəbiyyatda da, rəssamlıqda da uğurla yaradılmışdır. Hər bir sənətkar da yaratdığı obraza özünün görüb-duyduğu, müşahidə etdiyi fərqli, məxsusi olan rəng çalarlarını əlavə edir. Belə bir sənət taleyini yaşayanlardan biri də Azərbaycanın Xalq rəssamı, Azərbaycan SSR dövlət mükafatı laureatı Maral xanım Rəhmanzadə olub. Təbii ki, bir çox sənətkarlarımız kimi, onun da həyatı daşlı-kəsəkli yollardan keçərək bərkimiş, mətinləşmiş, özünün sənət yollarında böyük yaradıcılıq uğurları ilə ictimai, mənəvi, mədəni əhəmiyyət kəsb etmişdir.Bu yerdə Maral Rəhmanzadənin tərcümeyi-halında bəzi məqamlara diqqət yetirmək zərurəti ortaya gəlir. Maral Rəhmanzadə 1916-cı il iyulun 23-də Bakı şəhərində doğulub. 1930-1933-cü illərdə Azərbaycan Dövlət Rəssamlıq İnstitutunda oxuyub, 1934-1940-cı illərdə isə Moskva Rəssamlıq İnstitutunda təhsil alıb. Həyatının gənclik illərində acılar yaşayan Maral xanım çox çətinliklər görüb, bu mənada böyük bir məktəb keçib. Belə ki, atası otuzuncu illər repressiyasına məruz qalır, onu xalq düşməni kimi ləkələyir, Daşkənd həbsxanasına göndərirlər. Çox keçmir ki, o, elə həbsxanada dünyasını dəyişir. İnstitutu bitirdikdən sonra Maral Rəhmanzadə Moskvada “Xudojestvennaya literatura” nəşriyyatında işləsə də, atasının həbsindən sonra Bakıya qayıdır. Moskvada cəmi 6 ay işləməsinə baxmayaraq, sənətdə müəyyən təcrübə qazanır. Bakıda fəaliyyətə başlayan rəssamın əsərləri “Maral Rəhmanzadə” imzası ilə incəsənət aləmində tanınır, fırçasının ecazı mütəxəssislər, sənətsevərlər tərəfindən rəğbətlə qarşılanır.























Maral Rəhmanzadə sənəti çoxşaxəli, çoxcəhətli bir yaradıcılıq kimi həmişə diqqəti çəkir. O, rəssamlıq sənətinin demək olar ki, mümkün olan bütün qollarında, önəmli sahələrində ölməz əsərlər yaradıb. Rəssam Maral Rəhmanzadə yaradıcılığının geniş təbliği üçün keçirilən tədbirlərdən biri də söhbətdir. Tədbirə kitabxananın fəal oxucuları, Rəsm qalereyasının gənc rəssamları, şagir və tələbələr dəvət alır.

Kitabxanaçı söhbətə belə başlayır: Professional rəssamlıq təhsili almış ilk azərbaycanlı qadın, dövlət mükafatı laureatı Maral Rəhmanzadə müasir milli rəngkarlıq məktəbinin inkişafında yüksək xidmətləri olan sənətkardır.

Xalq Rəssamı Maral Rəhmanzadə təsviri sənətimizin zəngin ənənələrini davam etdirməklə yetmiş ildən artıq bir dövr ərzində səmərəli fəaliyyət göstərib.

Maral Rəhmanzadə 1916-cı il iyulun 23-də Bakı şəhərində anadan olub, Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirib. 1934-1940-cı illərdə Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunda təhsilini davam etdirib. Mənaca dolğun, təbii və yaddaqalan lövhələr yaradaraq, Azərbaycan rəssamlıq sənətinə layiqli töhfələr verib. Mahir fırça ustasının müxtəlif mövzulu əsərləri mədəniyyətimiz tarixinə boyakarlığın qiymətli nümunələri kimi daxil olub.

Maral Rəhmanzadə qrafika sahəsində xüsusilə məhsuldar çalışıb. Onun yaratdığı silsilələrdə Azərbaycanın füsunkar təbiəti dərin emosionallıq və böyük ustalıqla tərənnüm edilir. Rəssamın Vətənimizin ayrı-ayrı guşələrinin, o cümlədən Naxçıvan və Lənkəran, Şamaxı və Quba diyarlarının qədim tarix və təbiət abidələrini, əsrarəngiz mənzərələrini əks etdirən milli koloritli əsərləri qrafik elementlərin lakonikliyi və səmimiyyəti ilə seçilir.

Azərbaycan qadınına xas gözəlliyin, zərifliyin və zəngin mənəvi aləmin rənglərin əlvan dili ilə parlaq ifadəsi Maral Rəhmanzadə yaradıcılığının başlıca xüsusiyyətlərindən biridir. Yaradıcılığının erkən dövründə çəkdiyi dəzgah rəsmləri silsilələrində (“Azərbaycan qadını keçmişdə və indi”, “Qadınlar müharibə illərində”) Azərbaycan qadınlarının həyatı öz əksini tapmışdır. Kənd həyatı, doğma təbiətin təsviri onun rəngli linoqravüra silsilələrinin başlıca mövzusudur (“Bizim qızlar”, “Mənim bacılarım”, “Doğma vətənim”, “Azərbaycan”).

Maral Rəhmanzadə bir sıra xarici ölkələrin həyatından çoxlu eskizlər çəkib. Silsilə qravüralar yaradan rəssamın əsərləri London, Moskva, Nyu-York, Paris, Tokio və dünyanın məşhur şəhərlərinin muzeylərində, rəsm qalereyalarında və mötəbər sərgi salonlarında uğurla nümayiş etdirilib. Onun xaricdə də dəfələrlə təşkil olunmuş fərdi sərgiləri mədəniyyətimizin təbliğinə xidmət edib, Azərbaycan boyakarlığına beynəlxalq miqyasda şöhrət gətirib.

Rəssam Maral Rəhmanzadə milli təsviri sənətin inkişafındakı böyük xidmətlərinə görə bir çox mükafatlara, o cümlədən “Şöhrət” ordeninə layiq görülüb. 2008-ci il mart ayının 16-da vəfat etmiş və Mərdəkan qəbristanlığında torpağa tapşırılmışdır.

M.Rəhmanzadə milli təsviri sənətin inkişafındakı böyük xidmətlərinə görə bir çox orden və medallara, o cümlədən "Şöhrət" ordeninə layiq görülüb.

O, Prezidentin fərdi təqaüdçüsü idi.




Bildiyiniz kimi, Xalq Bankı xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərimizin dünyaya tanıdılması istiqamətində bir çox layihələr həyata keçirir. “Xalq Əmanəti” – mədəniyyət layihəsi çərçivəsində Azərbaycanın görkəmli ədəbiyyat, incəsənət və elm xadimlərinin əsərləri, eləcə də xalq yaradıcılığı, folklor nümunələri nəfis tərtibatda nəşr olunub sənətsevərlərin ixtiyarına verilir. “Xalq Əmanəti” layihəsi Azərbaycan dövlətinin xalqımızın mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi işinə Xalq Bankın kiçik bir töhfəsidir.“Xalq Əmanəti” layihəsinin üçüncü buraxılışı Azərbaycanın ilk peşəkar qadın rəssamı, dövlət mükafatı laureatı, “Şöhrət” ordenli Xalq rəssamı Maral Rəhmanzadənin həyat və yaradıcılığına həsr olunub. Nəşr olunan kitab iki dildə Azərbaycan və İngilis dilində “Şərq-Qərb” nəşriyyatı tərəfindən nəfis tərtibatda nəşr olunub. Kitabda rəssamın ailəsi haaqında geniş məlumat, ailə albomundan şəkillər, müxtəlif illərdə çəkilmiş rəsm əsərlərindən nümunələr yer alır. Maral Rəhmanzadənin fırçasına məxsus industrial və təbiət mənzərələri, kitab qrafikası nümunələri xalqımızın zəngin mədəni irsinin ayrılmaz hissəsinə çevrilmişdir. Zərif, idealizə olunmuş Azərbaycan qadını, “yeni sovet qadını” obrazları, neftçilərə həsr olunmuş son dərəcə emosional əsərlər, şəhər və kənd mənzərələrinin geniş retrospektivi – bu mövzular və obrazlar Maral Rəhmanzadənin dərindən, incəliklə hiss etdiyi, bütün qəlbi ilə sevdiyi Azərbaycanın sənət tarixində öz layiqli yerini tutub. Kitabda çoxsaylı avtolitoqrafiya və linoqravürlər, ofort və rəsmlər, sulu boya və rəngkarlıq işləri, kitab qrafikası nümunələri, Böyük Vətən müharibəsi dövrünə aid təbliğat plakatları görkəmli Azərbaycan rəssamı Maral Rəhmanzadənin zəngin yaradıcılıq irsinin təkşkil olunmasından söhbət açılır. Sonda kitabxanamızın fondunda yer alan kitabla tədbir iştirakçıalrı yaxından tanış olurlar. Maral Rəhmanzadə yaradıcılığının oxucular arasında geniş təbliği üçün keçirilən tədbirlərdən biri də ədəbi-bədii gecədir. Ədəbi-bədii gecə oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbir iki hissədən ibrət olur. Səhnə gül-çiçək dəstələri ilə bəzədilir, rəsamın portreti səhnənin divarından asılır.



Aparıcılar səhnəyə daxil olur:

**I Aparıcı:** İlk qadın rəssamımız, professional rəssamlıq təhsili görmüş ilk Azərbaycanlı qadın, qrafika ustası, milli qadın obrazının kamil yaradıcısı, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı, Xalq rəssamı Maral Rəhmanzadənin anadan olmasının 110-ci ildönümü tamam olur. Maral xanım yaxından tanımaqdan böyük şərəf və məmnuniyyət duyduğum görkəmli mədəniyyət xadimi, tanınmış sənətkar idi. O, böyük rəssam olmaqla yanaşı, gözəl şəxsiyyət, maraqlı müsahib kimi də özünə qarşı

həmişə rəğbət doğururdu. Maral Rəhmanzadə zəngin və mənalı olduğu qədər də keşməkeşlərlə, çətinliklərlə, ağrılarla dolu bir həyat yolu keçib. Amma bu yolda daim onu irəli aparan mübarizlik əzmi, mərdliyi, mətanəti və yenilməz qüruru olub. Onun xarakter cizgilərini bütövləşdirən bu keyfiyyətlər həyatına dərindən təsir göstərib.

Şəkil çəkməyi uşaq yaşlarından sevib. 1930-cu ildə 7-ci sinfi bitirib, Rəssamlıq Pedaqoji Texnikumuna (indiki Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi) daxil olub. Bacarığına görə diqqət çəkib. Texnikumda təhsilini başa vurduqdan sonra Maral Rəhmanzadəni bir neçə istedadlı tələbə ilə birlikdə Sovet İttifaqında məşhur olan, çoxlarının təhsil almaq istədiyi V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutuna göndəriblər. Maral Rəhmanzadə 1934-1940-cı illərdə həmin institutda böyük qrafika ustaları Vladimir Favorski, Aleksey Kravçenko, Dmitri Moor (Orlov) və digər tanınmış pedaqoqlardan dərs alıb. O, tələbəlik illərində fitri istedadını cilalamaq, təcrübə qazanmaq üçün yaranan şəraitdən səmərəli istifadə edib.

Azərbaycan qadınlarına həsr etdiyi diplom işini V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutunun rektoru, tanınmış rəssam və sənətşünas İqor Qrabarın çox yüksək dəyərləndirib, onu digər məzunlardan fərqləndirib. İnstitutu bitirən Maral Rəhmanzadə gənc mütəxəssis, ümid verən kitab illüstratoru kimi paytaxt Moskvadakı bədii ədəbiyyat nəşriyyatına göndərilib. 1940-cı ildə “Xudojestvennaya literatura” nəşriyyatında işə başlayan rəssamın qarşısında uğurlu bir yol açılıb. Ancaq bir gün Maral Rəhmanzadə Moskvada işlərini yarımçıq qoyaraq həmişəlik Bakıya dönüb.

Çoxları üçün gözlənilməz və anlaşılmaz olan bu qərarın Maral Rəhmanzadəni qüssəyə, kədərə ürcah edən səbəbi vardı. 1941-ci ildə rəssamın atası repressiyaya məruz qalmış, “xalq düşməni” elan olunmuşdu. Altı ay sonra isə Daşkənd həbsxanasında dünyasını dəyişmişdi.

Ata itkisindən sarsılan Maral Rəhmanzadənin o ağır günlərində köməyinə yaradıcılıq istəyi çatıb. Fəaliyyətini Bakıda davam etdirən rəssam tezliklə silsilə əsərləri ilə sənət aləmində tanınmağa başlayıb. Çox keçməyib ki, Böyük Vətən müharibəsinin başlanması xəbəri gəlib. Gənc rəssamın da yaradıcılığında hərbi vətənpərvərlik mövzusu aparıcı xəttə çevrilib. “Cəbhədə və arxada” seriya rəsmləri, təbliğat-təşviqat plakatları hazırlayıb.

I Aparıcı: Rəsm düşüncə və duyğunun boyayla təzahür etməsidir. Rəssam isə müşahidə edən, sehrli təsvirlər yaradan bir insandır. Tarix bir çox tanınmış rəssamlar yetişdirsə də, onların içində qadınların yeri ayrıdır. Azərbaycan xanımına xas gözəllik və zərifliyin nümunəsi Maral Rəhmanzadə kimi… Aramızdan ayrılmasından 9 il keçməsinə baxmayaraq rəsmləriylə hələ də hafizələrdədir.

II Aparıcı: Müharibədən sonrakı illərdə dəniz neftçiləri mövzusu düşüncələrinə hakim kəsilib. Neft Daşlarında işləməyə qərar verib. Çətin peşə sahibi olan neftçilərin coşqun, qəzəbli Xəzərin qoynunda necə yaşadıqlarını görmək üçün günlərlə estakadalarda qalıb. O, Neft Daşlarından rəsmlər çəkən ilk rəssam olub. Həmin əsərlər iki ay Bakıda Respublika İncəsənət Muzeyində fəaliyyət göstərən sərgidə, sonra Neft Daşlarında nümayiş etdirilib. Tezliklə Moskvada, SSRİ Rəssamlar İttifaqının Kuznetsk körpüsündəki sərgi zalında onun 70-dən çox rəsmi, akvareli və litoqrafiyası sərgilənib. Londonda, Kral Rəssamlıq Akademiyasının qalereyasında keçirilən sovet qrafikası sərgisində müəllimi Favorski, həmçinin Nisski, Vereyski ilə çıxış edən

Maral Rəhmanzadənin Neft Daşları ilə bağlı bir neçə əsəri nümayiş olunub. Sərgiyə maraq Britaniya qəzetlərində də əksini tapıb və barəsində kitab hazırlanıb. Həmin kitabda Maral Rəhmanzadə barədə ayrıca məqalə verilib. 1957-ci ildə Moskvada "Bizim Xəzərdə" adlı albomu buraxılıb. Həmin alboma daxil olan işlərin çoxu bu gün də Tretyakov Qalereyasındadır. Rəssam zövqünün incəliyi, zərifliyi onun kitab illüstrasiyalarını da fərqləndirib. Kitab qrafikası sahəsində geniş fəaliyyət göstərib. 1950-ci ildə Cəfər Cabbarlının əsərlərinin ikicildliyinin tərtibatını verib. Sonralar Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib", Məmməd Səid Ordubadinin "Qılınc və qələm", Nizami Gəncəvinin "Leyli və Məcnun" əsərlərinə, Məhəmməd Füzulinin "Qəzəllər"inə çəkdiyi illüstrasiyalar kitab qrafikasının gözəl nümunələridir. O, tərcümə ədəbiyyatına da tərtibat verib. A.S.Puşkinin "Yevgeni Onegin", M.Y.Lermontovun "Zəmanəmizin qəhrəmanı" əsərlərinə olan illüstrasiyaların müəllifidir.1950-ci illərin sonlarında üzərində işlədiyi "Bakı" rəngli avtolitoqrafiyalar seriyası ilk dəfə 1959-cu ildə Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü ilə bağlı sərgidə nümayiş olunub. Həmin vaxtlar o, Çexoslovakiyaya həsr olunmuş silsilə qravür üzərində çalışıb.
I aparıcı: Səttar Bəhlulzadəni gənclik illərindən tanıyırdı. Birlikdə Moskvaya, Vasiliy İvanoviç Surikov adına Rəssamlıq İnstitutunda təhsil almağa getmişdilər. Səttar Bəhlulzadə özü kimi mavigözlü qıza vurulub. Ancaq Maral Rəhmanzadə ona həmişə dost münasibəti göstərib. Başqası ilə qurduğu ailə həyatı da uzun sürməyib, ayrılıblar. Səttar Bəhlulzadə isə ömrü boyu evlənməyib. Hər ikisi məşhur rəssam olsalar da, bu sevgi dillərə düşməyib. Çünki Səttar Bəhlulzadə öz əbədi sevgisini hamıdan gizli saxlayıb...
Maral Rəhmanzadə təsviri sənətimizin zəngin ənənələrini davam etdirərək yetmiş ildən artıq fəaliyyət göstərib. Mahir fırça ustasının böyük xidmətləri diqqətdən kənarda qalmayıb. O, Əməkdar incəsənət xadini, Xalq rəssamı, "Azərbaycan" və "Vətənim" linoqravüralar silsiləsinə görə Mirzə Fətəli Axundzadə adına Azərbaycan SSR Dövlət mükafatı laureatı, "Şöhrət", "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı" ordenləri ilə təltif edilib. Professional rəssamlıq təhsili almış ilk azərbaycanlı qadın, "Azərbaycan neft ölkəsidir", "Bizim Xəzərdə", "Avtoportret" və başqa məşhur əsərlərin müəllifi Maral Rəhmanzadə ömrünün doxsan ikinci ilində, 2008-ci il martın 16-da vəfat edib. Mərdəkan qəbiristanlığında dəfn olunub. Maral Rəhmanzadə artıq dünyada yoxdur, amma onun əsərləri yaşayır, yaşadıqca da öz müəllifini yaşadır. Azərbaycan mədəniyyət tarixində böyük qadınlar çox olub. Bu sırada əsl qadın, gözəllik simvolu Maral Rəhmanzadənin yeri ayrıdır. Bu qədər böyük bir sənət yolu keçən, qiymətli yaradıcılıq irsi qoyub gedən Maral Rəhmanzadə sadəcə rəssam kimi deyil, şərəfli bir ziyalı, ləyaqətli qadın kimi kübarlığı, biliyi, davranışı, mədəniyyəti ilə möhtəşəm bir Azərbaycan qadını obrazı idi. Azərbaycan tarixində, Azərbaycan mədəniyyətində belə bir qadının olması ilə qürur duyuruq. Çünki Maral Rəhmanzadə öz həyat yolu ilə minlərlə Azərbaycan qızına yol açmış örnək sənətkarımız, böyük bir şəxsiyyət idi. Nur içində yatın, Maral xanım! Sizi heç bir zaman unutmayacağıq. Bugünkü və gələcək nəsillər hər zaman sizinlə qürur duyacaq, sizi şükranlıqla, sevgi, məhəbbətlə yad edəcəklər. Ruhunuz şad olsun!

**Ədəbiyyat siyahısı:**

M.Rəhmanzadə: Rəngkarlıq və Qrafika.-Bakı: Şərq-Qərb, 2011.-240 s.
https://publika.az/news/art/144227.html
https://525.az/news/61008-azerbaycan-ressamliginda-uca-bir-unvan
https://anspress.com/xalq-ressami-maral-rehmanzadenin-dogum-gunudur